BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2008

# ƏDƏBİYYATŞÜNASLIQ

## MÜASİR AZƏRBAYCAN POEZİYASINDA İSTİQLAL MƏFKURƏSİNİN POETİK ƏKSİ

**T.Ə.ƏBDÜLHƏSƏNLİ**
***Bakı Dövlət Universiteti***

Çağdaş Azərbaycan poeziyasında istiqlal mövzusu əsas, aparıcı istiqamətlərdən birini təşkil etməkdədir. Bu mövzu ötəri, təsadüfi səciyyə daşımamış, bəlli bir dövrdə şeirin mühüm istinad obyektlərindən birini təşkil etmişdir. Onu da qeyd edək ki, son illərdə bəzi tədqiqatlarda azadlıq, istiqlal mövzusunda yazılan poetik nümunələr «vətəndaşlıq poeziyası» kimi dəyərləndirilməkdədir. «...Bu ifadəni (vətəndaşlıq poeziyası – T.Ə.) əksər hallarda şairlərin əsərlərindəki ictimai pafosa görə müəyyənləşdirirlər. Əgər şair Vətənin başının üstünü alan təhlükədən, onun faciələrindən, ekoloji nizamının pozulmasından, min bir sosial bəladan yazırsa, özü də yazdığı şeirlərin bədii dəyərindən asılı olmayaraq yenə həmin ifadə köməyə gəlir».

Maraqlı mülahizələrdir, çünki ədəbi-nəzəri fikirdə bu ifadənin bəzən daha geniş anlamda işlənildiyinin xatırladılmasına ehtiyac duyulur.

Azərbaycanın istiqlaliyyətinə qovuşduğu ilk dövrlərdə ədəbi-estetik fikrə hakim olan vətənpərvərlik və vətəndaşlıq məfkurəsi əvvəlki illərdə də bu və ya digər dərəcədə aktuallıq kəsb etmişdir. Bu prizmadan milli poeziya tarixinə yanaşılarsa, ciddi bədii örnəklərin üzə çıxarılacağı aşkardır.

1991-2005-ci illər Azərbaycan poeziyasını təmsil edən ədəbi şəxsiyyətlər içərisində elə bir imzaya təsadüf etmək mümkün deyildir ki, istiqlal mövzusuna bu və ya digər şəkildə toxunmamış olsun. Bu da təbii olaraq yetmiş ildən artıq davam edən rus sovet müstəmləkəçiliyinin dağılmasının qlobal bir proses kimi Azərbaycan ədəbi-bədii fikrini ciddi şəkildə düşündürməsindən qaynaqlanmaqdadır.

İstiqlal mövzusu Bəxtiyar Vahabzadənin yaradıcılığında özünəməxsus şəkildə poetik təcəssümünü tapmışdır. Müəllif bütün yaradıcılığı boyu bu problemə xüsusi diqqət yetirmiş, sovet siyasi rejiminin ən sərt və amansız dönəmlərində belə bəhs olunan mövzuda dəyərli, bitkin əsərlər yaratmışdır. Ona görə də, bu gün tam qətiyyətlə demək olar ki, «bütöv bir istiqlalçı nəslin ideoloqu, tərbiyəçisi və ustadı olan» Bəxtiyar Vahabzadənin «imzası olmadan millətin istiqlal hərəkatı yarımçıq görünərdi».

Şairin istiqlaliyyət dövründə azadlıq və istiqlal mövzusunda xeyli əsəri çap olunmuşdur. Bunların içərisində «Azadlıq», «Əsarət-azadlıq», «Tənha məzar», «Əgər qorunmazsa istiqlalımız» və başqa şeirlər xüsusi yer tutmaqdadır. Müəllifin qənaətincə, hər bir millətin varlığı onun is-

tiqlalına bağlıdır. İstiqlalı olmayan millətlər gec-tez tarix səhnəsini tərk etməyə məhkumdurlar. Çünki millətin varlığının, mövcudluğunun, gələcəyinin qarantı onun müstəqil dövlətçiliyi, istiqlalıdır. «Əgər qorunmasa istiqlalımız» adlı şeirində Bəxtiyar Vahabzadənin dünyada baş verən hərbi-siyasi çaxnaşmalar fonunda Azərbaycanın yenicə əldə etdiyi istiqlalına yaranmış təhlükədən doğan narahatlığı bədii ifadəsini tapmışdır.

Azadlıq, səadət haqqımdır mənim,
Allah çox görməsin bu haqqı bizə.
İstiqlal yolunda qurbanlar verib,
Axır yetişmişik istəyimizə.

Yazıçı-ədəbiyyatşünas Həsən Həsənov (Əzizoğlu) Bəxtiyar Vahabzadənin «İstiqlal» (1999) kitabına yazdığı «Azərbaycanın Bəxtiyarı, yaxud «Gülüstan»dan «Şəhidlər»ə gedən yol» adlı ön sözdə şairin poetik yaradıcılığının bu aspekti ilə bağlı maraqlı qənaətə gəlmişdir: «Azadlıq mövzusu Bəxtiyar Vahabzadə yaradıcılığının aparıcı mövzularındandır. Bəxtiyar Vahabzadə azadlığı şeir pafosu ilə romantik bir tərzdə deyil, demək olar ki, bu anlayışı dərindən təhlil edərək onun dolğun və gerçək izahını verir: «Azadlıq bütün inamların ən yüksəyidir, kimdənsə umulmamalıdır, o, ərməğan şəklində verilməməlidir, yadlara ümidli olmaqla onu əldə etmək olmaz, onu xalq öz mübarizəsi ilə qazanmalıdır və onun yolunda xalq qurbanlar verməyə hazır olmalıdır». Bəxtiyar Vahabzadə yaradıcılığının mahiyyətini dəqiq, sərrast mühakimələrlə səciyyələndirən ədəbiyyatşünas qənaətlərini aşağıdakı kimi yekunlaşdırır: «Bəxtiyar Vahabzadə vətən-dövlət azadlığı ilə yanaşı, insan azadlığını da ali tutur, onun həmin bəşəri dəyərlərə uyğun öz fəlsəfi konsepsiyası var. İnsan azadlığı olmayan dövlətdə fəlakətlər törənər, düşünən beyinlər sönər, dünya xəyala darısqal gələr, həqiqət riya, ədalət isə boya olar, insan ürəyində kin və nifrət məskunlaşar, adamlar yaşasa da, insanlıq mövcud olmaz, yalanla həqiqət üzbəüz durar, nadan başda gələr, aqil isə ayaqda».

«Ömrü boyu azadlıq mövzusunu dilə gətirmiş» Bəxtiyar Vahabzadənin «Azadlıq» şeirində Azərbaycanın yenidən öz istiqlaliyyətinə qovuşması tarixin millətimizə bəxş etdiyi ən böyük, ən qiymətli sərvət kimi dəyərləndirilir.

Azadlıq, azadlıq! Ömrüm boyunca,
Sənin acın oldum, möhtacın oldum.

Şeirin sonrakı misralarında şair azadlıq anlayışı haqqında düşüncələrini «məhkum xalqlar üçün azadlıq qədər böyük bir səadət ola bilərmi?» – şəklində ümumiləşdirərək bu ifadənin məna tutumunun yalnız ölkənin istiqlaliyyəti ilə məhdudlaşmadığını, bundan az mühüm olmayan insan və şəxsiyyət azadlığı anlamını da ehtiva etdiyini irəli sürür.

Azadlıq eşqilə qol-qola çatdıq,
Azadlıq naminə bayraq ucaltdıq.
Səpdik qanımızı qədəmlərinə,
Baha başa gəldin bizə sən, baha.
Azadlıq! Nəhayət qovuşduq sənə,
Amma deyəmmədik: «Şükür Allaha».

İstiqlal mövzusu sözün həqiqi mənasında azadlıq carçısı Xəlil Rza

Ulutürkün yaradıcılığında mühüm yerlərdən birini tutmaqdadır. Şairin 1992-ci ildə nəşr edilmiş «Davam edir 37...» adlı şeirlər toplusunun bölmələrindən birinin «Müstəqillik» adlandırılması təsadüfi hesab edilməməlidir. Həmin bölmədə verilmiş «Yalnız pasportunda», «Milli satqın», «Sumqayıt dastanı» və başqa poetik nümunələr istiqlal məfkurəsinin tərənnümünə həsr olunmuşdur. Xəlil Rza Ulutürkün hələ Azərbaycanın istiqlaliyyətinin əldə olunmasından qabaq Moskvanın Lefortovo həbsxanasında yazdığı silsilə şeirləri istiqlal mövzusunda qələmə alınmış ən dəyərli poetik örnəklərdən hesab olunmaqdadır. «İstiqlal şairləri» adlı monoqrafik tədqiqatında şairin məhbəs şeirlərini təhlil obyektinə çevirən filologiya elmləri doktoru, professor Yavuz Axundlu qənaətlərini aşağıdakı şəkildə ümumiləşdirir: «Ümumiyyətlə, Lefortovoda yazdığı şeirlər təkcə X.Rzanın yaradıcılığında deyil, çağdaş Azərbaycan poeziyasında siyasi lirikanın ən dəyərli nümunələri hesab olunmalıdır. Bu silsilədən olan şeirlərin hamısını bir sözlə səciyyələndirməli olsaq, bircə adın üzərində dayanarıq: Vətən! Müstəqillik arzusu, azadlıq və istiqlal duyğusu da bu sözün qabağında pərvazlanır». Şübhəsiz ki, Xəlil Rza Ulutürkün məhbəs şeirlərini dəqiq xarakterizə edən bu mülahizələrlə razılaşmamaq mümkün deyildir.

Xəlil Rza Ulutürkün Lefortovo silsiləsindən yazmış olduğu poetik örnəklərin toplandığı «Davam edir 37...» kitabına «Xəlil Rza zindanda» adlı ön söz yazmış Hidayət isə qənaətlərini aşağıdakı kimi ümumiləşdirir: «Şair üçün zindan məfhumu həmişə sözün həqiqi mənasında deyilən zindan deyildir. Əsl sənətkar işıqlı dünyada – onu darıxdıran mövcud cəmiyyətdə də özünü zindanda sayır, haqq səsini, etiraz harayını, xalqın bağrından doğan fəryadını ucaldır və bu fəryad gec-tez onu həqiqi zindana gətirir. Xəlil Rzada zindan yolu ayrı cür olmadı. Valyuntarizmin gopkələk bataqlığında cəsarətlə poeziyaya gəldi, «durğunluq» deyilən illərdə orden-medal, vəzifə dalınca düşmədi, ilk gənclik çağlarından sərt misraları, düz sözü üstə həmişə döyüldü, işdən çıxarıldı, əlyazmaları redaktorlardan başlamış hökumət rəhbərlərinəcən neçə mərhələdə «darandı», kitablarının nəşri ləngidildi... Amma döyüldükcə bərkidi Xəlil Rza, ilk andını unutmadı, çünki «bu dünyada otun, suyun, torpağın da yaddaşı var. Sındırılmış bir budağın, söndürülmüş ocağın da yaddaşı var!» və bu yaddaşa neçə dəfə «yuxu dərmanı» verdilər, «keyitmə iynəsi» vurdular, saxta konsepsiyalar yaydılar, bir şey çıxmadı, çünki qan yaddaşıydı».

Onu da qeyd edək ki, Xəlil Rza Ulutürk fenomenini dəyərləndirmədən çağdaş poeziyada istiqlal məfkurəsinin hansı səviyyədə işləndiyini bütün mahiyyətilə dərk etmək mümkün deyildir. Çünki o, birincisi, bədii yazıları, ikincisi, bundan az əhəmiyyət daşımayan memuarları, üçüncüsü isə, siyasi fəaliyyəti ilə istiqlal düşüncəsinin formalaşmasında mühüm xidmətlər göstərmişdir. «Radikal inqilabi stixiya ədəbi prosesin, onun xəritəsinin relyefini dəyişir. Bu dəyişən relyefdə öz yerini vaxtında və dəqiq tapmaqda çoxları çətinlik çəkir. Belə bir böhrandan şairlərin yalnız bir qismi tamam yan keçə bilir: həm siyasətin, həm də poeziyanın nəbzini eyni vaxtda tutanlar və problemlərini eyni vaxtda həll edənlər, hər iki sahənin ikisinin də ön xəttində duranlar... Onların içində ən önəmli, ən qabarıq yeri, şübhəsiz, şair Xəlil Rza Ulutürk tutur. Həm şeirin, həm də publisistikanın bədii-sənədli əsasda birləşdiyi monumental bədii kitab – Xəlil Rza Ulutürkün «Davam edir 37» toplusudur; ...bu kitab döyüşən qələmin və süngünün vəhdətinə təkrarsız nümunədir.

Xəlil Rza Ulutürkün «Gerbimiz – qəlbimiz» adlı şeirində Azərbaycanın əldə etmiş olduğu müstəqilliyindən böyük iftixar və fəxarət hissi ilə bəhs olunur, ölkəmizin dövlət rəmzlərinin - gerb və bayrağın müqəddəsliyi poetik şəkildə tərənnüm olunur:

Sən şəkil yox, nəfəsimsən, axan qansan varlığımda,
Hansı rənglər çiçəklənir gör üç rəngli bayrağımda.
Yaşıl rəngim – yaşıl bahar, müsəlmanlıq timsalıdır,
Göy rəngimdə Türklük yaşar – millətimin amalıdır.
Qırmızılıq – simvoludur çağdaşlığın, yüksəlişin,
Vətənimə can verməli mənim əzmim, mənim işim.

Şair Azərbaycan bayrağını bəzəyən rənglərin təsadüfi xarakter daşımadığını, onların dərin mənalar ifadə etdiyini, gerbin naxışlarındakı simvolların millətin qəlbindən, mənəviyyatından, ruhi zənginliklərindən su içdiyini göstərərək poetik düşüncələrini aşağıdakı misralarla tamamlayır:

Yalnız qızıl alovlarla bəzəmədik gerbimizi,
Aləm üçün, bəşər üçün məşəl tutduq qəlbimizi.
Dedik: bu Yer kürəsində nə qan, nə bir məzar olsun,
Məzarlara gül qoymayaq,
cahan özü gülzar olsun.

Azərbaycanın xalq şairi Məmməd Arazın vətən oğullarına müraciətlə yazılmış «Mürgüləmə» şeiri istiqlal mövzusunda yaranmış poetik örnəklər içərisində xüsusi yer tutmaqdadır. Şeirdə müəllif vətənin istiqlalının, azadlığının qorunması yolunda hələ bundan sonra da görüləcək işlərin olduğuna diqqəti çəkmişdir.

Mürgülərin sonu ağır mürgü olur...
Mürgülüyük: torpağımız palaz-palaz
dartılanda mürgülüydük.
Meşələrimiz qucaq-qucaq, tala-tala
çapılanda mürgülüydük.
Yatma, Vətən, yatma torpaq, yatma insan,
Ölüm-qalım savaşı var öndə hələ,
İstiqlalla irticanın savaşı var öndə hələ.
Tapdaq altda qalan millət səninkidir,
Qılınc qapan, qalxan tutan istəyir.

Şeirdən hasil olan qənaətə görə, millətlər yarışında dəstədən geridə qalmamaq, düşmən əsirinə çevrilməmək, min bir əziyyətlə qazanılmış istiqlaliyyəti qorumaq üçün davamlı mübarizə və mücadiləyə ehtiyac vardır. Vətənin hər bir övladı istiqlal adlanan bu əbədi mübarizə yolunda öz töhfəsini verməli, əlindən gələni əsirgəməməlidir.

İstiqlal məfkurəsinin bədii dərki Azərbaycanın xalq şairi Fikrət Qocanın yaradıcılığında da özünəməxsus şəkildə poetik təcəssümünü tapmışdır. Şairin qənaətincə, azadlıq millətlərə, insanlara verilən ən böyük sərvətdir və bu sərvət gərəyincə dəyərləndirilməli, qədir-qiyməti bilinməli, ondan sui-istifadə olunmamalıdır. Şairin «Azadlıq» adlı şeirində pessimizm əhvali-ruhiyyəsinin ifadə olunması isə bir qədər təəccüblü görünür:

Deyəsən, azadlıq
əvvəlindən gözəl bir yalandı.

Onu da qeyd edək ki, vətənin azadlığı, istiqlaliyyəti uğrunda qurban getməyin bədii örnəkləri yalnız yaşlı və orta ədəbi nəslin yaradıcılığında deyil, gənc qələm sahiblərinin əsərlərində də yüksək poetik ifadəsini tapmışdır.

1991-2005-ci illər poeziyasında istiqlal məfkurəsinin bədii təcəssümünü şərtləndirən obrazlar sırasında bayraq xüsusi yerlərdən birini tutmaqdadır. Əvvəlki illərdə olduğu kimi, bəhs olunan dövrün poeziyasında da «Bayraq (kulturoloji, ideoloji, dövlətçilik) bir rəmz olaraq, türkün qürur və müəyyənlik nişanəsinin gələnəyi kimi həm millilik, həm də vətənçilik şüur və məfkurəsinin yaşamı olaraq ifadə olunmaqdadır. Bayraq və ona münasibət də mental dəyər olub çağdaş fikir və düşüncənin mərkəzində siyasi-ideoloji dərk, fərdi anlayış və tərbiyə mənbəyi kimi tərənnüm edilməkdədir. Sənətkarlar bayrağa sözün sinirlərindən, hüceyrələrindən gələn sirayəti ilə bütün hallarda dövlətçilik, müstəqillik rəmzi kimi süslü münasibət bildirmişlər». Elə buna görədir ki, dövrün əksər tanınmış şairləri istiqlal haqqında düşüncələrini bayraq simvoluna sığınaraq əks etdirməyə çalışmışlar.

Şübhəsiz ki, bir elmi məqalədə 1991-2005-ci illər Azərbaycan poeziyasında istiqlal məfkurəsinin təcəssümünü bütün yönlərilə araşdırmaq mümkün deyildir. Buna görə də, sadəcə olaraq dövrün ədəbi panoramının canlandırılması məramı təbiidir.

## QEYDLƏR


1. Axundlu Yavuz. İstiqlal şairləri. Bakı: Elm, 1998.
2. Araz Məmməd. Vətən deyin. Bakı: Adiloğlu, 2003.
3. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri (məqalələr toplusu), I kitab. Bakı: Elm, 2006.
4. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri (məqalələr toplusu). I kitab. Bakı: Elm, 2006.
5. Bünyadzadə Ülvi. Bir ölümün acığına. Bakı: Gənclik, 1993.
6. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996.
7. Qoca Fikrət. Adi həqiqətlər. Bakı: Azərnəşr, 2000.
8. Qusarçaylı Ramiz. Şeirlər, «Azərbaycan» jurnalı, 205, N-11, s.37-44.
9. Məmmədli Mürşüd. Xəlil Rza Ulutürk fenomeni. «525-ci qəzet», 28-30 yanvar. 1998.
10. Nəbiyev Bəkir. İstiqlal şairi. Bakı: Elm, 2001.
11. Xəlil Rza. Ulutürk. Davam edir 37. Bakı: Gənclik, 1992.
12. Xəlil Rza. Ulutürk Türkün dastanı. Bakı: Gənclik, 2000.
13. Yusifli Vaqif. Yollar hayana aparır. Bakı: Gənclik, 1999.
14. Mayadağlı Hüsniye. B.Vahabzadenin eserlerinde setiraltı ifadeler. «Türk Edebiyyat» dergisi, şubat, 1994.


## ПОЭТИЧЕСКОЕ ОТРАЖЕНИЕ ТЕМЫ НЕЗАВИСИМОСТИ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ


Т.А.АБДУЛГАСАНЛИ



### РЕЗЮМЕ

Представленная статья посвящена такой важной теме в современной азербайджанской поэзии как свобода, независимость. Невозможно представить поэта в современной поэзии, который не затронул бы «гражданскую лирику». В статье отражается творчество как молодых, так и зрелых поэтов, выражающее идею независимости.

## POETIC REFLECTION OF INDEPENDENCE IDEOLOGY IN THE COMTEMPORARY AZERBAIJAN'S POETRY

**T.A.ABDULHESENLI**

**SUMMARY**

Presented article has been dedicated to the development of themes independence in today's Azerbaijan's poetry as one of important object of poems. It is impossible to find the writer, who has not touched to the independence, patriotism themes by the different forms.